TKTA
Təhsildə Keyfiyyət Təminatı Agentliyi

I YARIMİLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR

# HESABAT

www.tkta.edu.az
info@tkta.edu.az

tkta
tktaeduaz

2021

# MÜNDƏRİCAT

HESABAT 2021-I

**01**
Giriş

**02**
Agentlik haqqında ümumi məlumat

**03**
Agentliyin strukturu

**04**
I yarımildə görülmüş işlər: sahələr

**05**
Tanınma

**07**
Keyfiyyət təminatı

**08**
Məktəb inspeksiyası

**09**
PR/marketinq və İnsan Resursları

# Giriş

“ SƏNƏTİN VARSA, SƏNƏDİN OLACAQ! ”



Agentlik ölkə başçısının 29.12.2019-cu il tarixli 907 nömrəli Fərmanı ilə yaradılmış və 09.01.2020-ci ildə dövlət qeydiyyatına alınmışdır.

Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malikdir.

Agentlikdə müvafiq ştat vahidi üzrə 42 nəfər əməkdaş çalışır.

Agentliyin ləğvini və ya yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# Haqqımızda

## Əsas hədəflər

- Azərbaycan Respublikasında effektiv keyfiyyət təminatı sisteminin fəaliyyətini təşkil etmək
- Keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini formalaşdırmaq
- Müasir dövrün tələblərinə uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik rəqabətqabiliyyətli mütəxəssislərin əmək bazarına çıxışına dəstək göstərmək

## Əsas fəaliyyət istiqamətləri

Təhsil müəssisələrinin və təhsil proqramlarının akkreditasiyasını həyata keçirmək

Təhsil müəssisələrində DKT sistemlərinin qurulması və inkişafı ilə bağlı məsləhət və metodiki dəstək xidmətləri təşkil etmək

Təhsil müəssisələrinin nüfuzunun və mütəxəssis hazırlığının keyfiyyətinin artırılmasını təşviq etmək

Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasını həyata keçirmək

Peşə təhsili üzrə qeyri-formal və informal təhsilin tanınmasını həyata keçirmək

## Hüquq və vəzifələri

Agentliyin fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə ölkəmizin üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsini təmin etmək

Keyfiyyət təminatı mövzusunda fərdlərin səriştələrinin artırılması üzrə konfranslar, müşavirələr, seminarlar, təlimlər keçirmək və digər tədbirlər təşkil etmək

Qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək

# Struktur


SƏDR
İdarə heyətinin üzvü
Sədr müavini
İdarə heyətinin üzvü
İdarə heyətinin üzvü
Keyfiyyət təminatı departamenti
Kvalifikasiyaların tanınması departamenti
Hüquqi təminat departamenti
Akkreditasiya və lisenziya şöbəsi
Kvalifikasiyaların tanınması şöbəsi
Hüquqi məsələlərin tənzimlənməsi şöbəsi
İnformasiya şöbəsi
Analitik təhlil şöbəsi
Q-formal və informal təhsilin tanınması şöbəsi
Maliyyə şöbəsi
Təlim və metodologiya şöbəsi

# I yarımildə görülmüş işlər:

## SAHƏLƏR

2021-ci ilin ilk yarımilində gördüyümüz işləri dörd əsas sahəyə bölmüşük: Tanınma, Keyfiyyət təminatı, Məktəb inspeksiyası, PR/Marketinq və HR



**Tanınma**

**Keyfiyyət təminatı**

**Məktəb inspeksiyası**

**PR/Marketinq və İnsan Resursları**

# Tanınma

## Xarici kvalifikasiyaların tanınması

### 1286 müraciət

- Qəbul edilib
- Qəbul edilməyib




Müraciətlərə orta baxılma müddəti 17 iş günü olmuşdur:




Qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və yerli kontekstdə tətbiqi məqsədilə **5** beynəlxalq təlimdə, həmçinin **2** vebinar və konfransda iştirak edilmişdir.

**Arxiv** bazasında mövcud olan fiziki sənədlərin (**18200**-dən çox sənəd) elektronlaşdırılması həyata keçirilmişdir (könüllülər cəlb olunmaqla).

# Qeyri-formal və informal təhsilin tanınması

Apelyasiya Komissiyasının Əsasnaməsi, ekspertlərin seçim meyarları, işəgötürənlərin seçim meyarları, praktiki imtahan üçün daxili prosedur qaydaları hazırlanmışdır.

Mobil telefonların təmiri ustası", "Qənnadçı-şirniyyatçı", "Ərzaq və qeyri-ərzaq mallarının satıcısı, nəzarətçi-xəzinədar", "Plastik boru qaynaqçısı", "Bərbər" ixtisasları üzrə ekspert və sual bazası yaradılmışdır.

"Mobil telefonların təmiri ustası" və "Qənnadçı-şirniyyatçı" ixtisasları üzrə qeyri-formal və informal təhsilin tanınmasının birinci mərhələsi (biliyin qiymətləndirilməsi) yekunlaşmışdır.

I yarımildə q-formal və informal təhsilin tanınması üzrə ərizəçilərə ümumilikdə 27 sertifikat, 2 diplom təqdim edilmişdir ("Plastik boru qaynaqçısı" və "Bərbər" ixtisasları üzrə).

Əmək bazarında tələb-təklifin təhlili və prioritet peşə ixtisaslarının müəyyən edilməsi məqsədi ilə 70 müəssisədən olan işəgötürənlər arasında sorğu keçirilmişdir.

Fiziki məhdudiyyətli qadınların bilik və bacarıqlarının qiymətləndirilməsi məqsədilə sponsor qismində "PAŞA Holding" ilə anlaşma memorandumu imzalanmışdır.




TKTA
Texno


TKTA
Təhsildə Keyfiyyət Təminatı Agentliyi
SƏNƏTİN VARSA,
SƏNƏDİN OLACAQ!
TKTA


TKTA
QEYRİ-FORMAL VƏ İNFORMAL
TƏHSİLİN TANINMASI

# Keyfiyyət təminatı

## Akkreditasiya və lisenziya

GDU və UTECA-nın akkreditasiya qiymətləndirilməsi prosesi yekunlaşmış və Yekun Hesabatlar Akkreditasiya Şurasına təqdim olunmuşdur.

ADU, OYU və ADPU-nun filiallarında Akkreditasiya Komissiyasının verdiyi tövsiyələrin icrasının monitorinqi aparılmışdır.

Xüsusi karantin rejimi dövründə ümumi təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinə dair müvafiq qaydaların tələblərinə əməl olunmasının yoxlanılması məqsədilə 137 məktəbdə monitorinq aparılmışdır.

Xəzər Universitetinin yeni 2 ixtisasın açılmasına dair müraciəti əsasında ekspert komissiyası tərəfindən monitorinq keçirilmiş və nəticələrə dair müvafiq hesabat hazırlamışdır.

14 müəssisənin müraciətləri əsasında təhsil fəaliyyətinin lisenziyalaşdırılması ilə bağlı rəyvermə prosesində iştirak olunmuşdur.

## Təlim və metodologiya

Ekspert bankına müraciət edən 169 namizədə “Keyfiyyət Təminatı Sistemi və Daxili Keyfiyyət Təminatı” (I modul) mövzusunda təlimlər keçirilmişdir.

14 müxtəlif ATM-in akademik və inzibati heyətinə “Akkreditasiya qiymətləndirilməsində ekspertlərin rolu” mövzusunda seminar keçirilib.

Yeni Akkreditasiya Qaydaları, Daxili Keyfiyyət Təminatı və Ekspert bankına dair təlimat (bələdçi) xarakterli sənədlər hazırlanmışdır.

Təlim ehtiyaclarının aşkar olunması məqsədilə 32 ATM-in akademik heyəti arasında anonim sorğu keçirilmiş və nəticələr təhlil olunmuşdur.

AzTU-nun əməkdaşlarına daxili və xarici keyfiyyət təminatına dair 7 günlük, SDU və UNEC-in əməkdaşlarına isə xarici keyfiyyət təminatına dair 3 günlük təlimlər keçirilmişdir.

Agentliyin Beynəlmiləlləşmə strategiyası hazırlanmışdır. Sənəddə ENQA, INQAAHE, CHEA, CEENQA, TAICEP, SICI kimi beynəlxalq təşkilatlara üzv olmaqla, beynəlxalq təcrübənin uğurla öyrənilərək tətbiqi məsələsi prioritetlik təşkil edir.

# Məktəb inspeksiyası

## İnspektorların seçimi

Ümumi müraciət
**1100+**

Yazılı imtahana dəvət olunan
**116**

Müsahibəyə dəvət olunan
**38**

Müsahibədən keçən
**9**

## Digər işlər

Mart-iyun aylarında Bakı, Sumqayıt, Abşeron, Mingəçevir, Gəncə, Yevlax, Bərdə, Lənkəran, Masallı, Cəlilabad bölgələrində yerləşən 24 məktəbdə pilot inspeksiyalar keçirilmişdir.

Əsas inspeksiya alətləri:

- dərsdinləmələr;
- heyətlə müsahibələr;
- zəruri məktəb sənədlərinə baxış;
- valideynlərlə fokus qrup intervyular;
- müəllim, şagird və valideynlər arasında sorğular;
- infrastruktur və maddi-texniki bazanın yoxlanılması;
- təhlükəsizlik və sanitariya-gigiyena vəziyyətinə baxış.

“Məktəb inspektoru” vəzifəsi üzrə növbəti vakansiya 14.06.2021-ci il tarixindən etibarən elan edilmişdir. Seçimlər yekunlaşdıqdan sonra uyğun namizədlərə yerli və beynəlxalq ekspertlər tərəfindən təlimlər keçiriləcəkdir.

2021/2022-ci tədris ilindən etibarən real inspeksiyalara başlanılacaqdır.

# PR/Marketinq

| | | | | |
|---|---|---|---|---|
| **16.7 K** | **774** | **475** | **163** | **811** |
| 15.2 K | 72 | - | - | 250 |

Hesabat dövründə TKTA-nın rəsmi saytında qurumun fəaliyyətinə dair 68 pres-reliz paylaşılmış, habelə TV kanallarına müsahibələr verilmiş və qonaq qismində iştirak edilmişdir.

“Məktəb inspektoru” vakansiyası üzrə elanın daha geniş kütləyə çatdırılması və layihənin ictimaiyyətə tanıdılması məqsədilə videoçarx hazırlanmış və KİV-də genişmiqyaslı PR kompaniyası başladılmışdır.

DP məzunları ilə “Beynəlxalq təhsil təcrübəsinin yerli təhsil sistemində tətbiqi imkanları” mövzusunda videokonfrans təşkil olunmuşdur.

TKTA-nın yeni, daha təkmil veb-saytı test rejimdə ictimaiyyətə təqdim edilmişdir.

# İnsan Resursları

TKTA-nın 3 əməkdaşı TN və "McKinsey & Company" arasındakı əməkdaşlıq çərçivəsində təşkil olunan 6 aylıq "Gələcəyin Liderləri Akademiyası" adlı virtual pilot proqramından məzun olmuşlar.

KPI-lar üzrə qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olduqları üçün Agentliyin 8 əməkdaşı vəzifədə irəli çəkilmişdir (onlardan 1-i İdarə heyətinə üzv, 1-i departament direktoru, 3-u isə şöbə müdirliyinə yüksəlmişdir).

Agentliyin əməkdaşları "Python" ilə analitika, "Excel", "İnsan resurları və elektron xidmətlər", "Marketinq", eləcə də "DMS-dən istifadə" ilə bağlı təlimlərdə iştirak etmişlər.

Hesabat dövrü ərzində işə qəbul üçün ümumilikdə 5500-dən artıq namizədin CV-si nəzərdən keçirilmiş, onlardan təqribən 128-i ilə müsahibələr təşkil edilmişdir. Nəticə olaraq 10 əməkdaş müxtəlif vakansiyalar üzrə işə qəbul edilmişdir.

Struktur bölmələr arasında kommunikasiya və əməkdaşlararası ünsiyyətin inkişafı məqsədi ilə "Şöbəni tanı" layihəsi həyata keçirilmişdir.